


**Ağbaş kərkəs (Gyps fulvus.).** Dəniz səviyyəsindən 1000-2000 m hündürlükdə quru iqlimli açıq ərazilərdə məskunlaşır. Oturaq növdür. Kütləsi 5-12 kq-dır. Ölmüş heyvan leşlərini yeyir və təbiətdə xəstəlik mənbələrini məhdudlaşdırır. Nəsli kəsilməyə həssas (VU) nadir növ kimi Azərbaycan Respublikasının Qırmızı Kitabına (2023) daxil edilib.




**Saqqallı kərkəs (Gypaetus barbatus).** Dəniz səviyyəsindən 700-3000 m hündürlükdə qayalı sahələrdə məskunlaşır. Oturaq növdür. Kütləsi 4,5-7,5 kq-dır. Ölmüş heyvan leşlərini yeyir və təbiətdə xəstəlik mənbələrini məhdudlaşdırır. Nəsli kəsilmək təhlükəsində olan (EN) növ kimi Azərbaycan Respublikasının Qırmızı Kitabına (2023) daxil edilib.




**Leşyeyən ağkərkəs (Neophron percnopterus).** Dəniz səviyyəsindən 300-1000 m hündürlükdə quru iqlimli açıq ərazilərdə məskunlaşır. Yuvalayan köçəri növdür. Kütləsi 1,5-2,5 kq-dır. Ölmüş heyvan leşlərini yeyir və təbiətdə xəstəlik mənbələrini azaldır. Nəsli kəsilmək təhlükəsində olan (EN) növ kimi - Azərbaycan Respublikasının Qırmızı Kitabına (2023) daxil edilib.




**Adi arıyeyən (Pernis apivorus).** Quru iqlimli seyrək dağətəyi meşələrində məskunlaşır. Yuvalayan köçəri növdür. Kütləsi 0,6-1,0 kq-dır. Bal arılarını ovlayaraq arıçılığa maddi zərər vurur. Kritik təhlükə həddində olan növ (CR) kimi Azərbaycan Respublikasının Qırmızı Kitabına (2023) daxil edilib.


*Buklet Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə Bioloji Müxtəliflik Mərkəzi İctimai Birliyinin "Azad olunmuş ərazilərdə yırtıcı və zərərli heyvanlardan qorunma" layihəsi çərçivəsində çap edilmişdir. Bukletin məzmununda əks olunan fikir və mülahizələr Bioloji Müxtəliflik Mərkəzi İctimai Birliyinin cavabdehliyindədir və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin mövqeyini əks etdirməyə bilər.*

Tiraj: 150 ədəd
Çap məhsulunu hazırladı: İndigo printing house
Ünvan: AZ 1143, Bakı, Ş.Mehdiyev küç., 133C
Tel.: (+994 12) 596 17 12 / 13 / 14
Mob.: (+994 55) 208 16 61 / (+994 55) 213 22 73


Layihə: "Azad olmuş ərazilərdə yırtıcı və zəhərli heyvanlardan qorunma"

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi

Bioloji Müxtəliflik Mərkəzi İctimai Birliyi

# Azad Olmuş Ərazilərin Yırtıcı Quşları






İşğal dövründə  xarabalığa çevrilmiş və uzun müddət yaşayış olmayan ərazilərdə insan həyatı üçün təhlükəli yırtıcı və zəhərli heyvanlar geniş yayılıb. Rast gələnən vəhşi fauna növləri arasında yırtıcı quşlar da vardır. Onların bəzi növləri zərərvericiləri tələf etdiyinə görə insanlar üçün faydalıdırlar. Ölmüş heyvan leşlərini yeyən yırtıcı quşlar “ekosistemlərin sanitarı” hesab olunur. Digərləri isə ev quşlarını, arıları ovladıqlarına görə maddi ziyan vururlar. Yırtıcı quş növlərinin əksəriyyəti nadir növlərdir və qanunla qorunur. Ona görə də insanlar yırtıcı  quşlar haqqında məlumatlı olmalı və onları tanımalıdır!







**Adi ilanyeyən (Circaetus gallicus).** Dəniz səviyyəsindən 1000 m hündürlüyədək quru iqlimli ərazilərdə məskunlaşır. Yuvalayan növdür. Kütləsi 1,5-2,5 kq-dır. Nəsli kəsilmək təhlükəsində olan (EN) növ kimi Azərbaycan Respublikasının Qırmızı Kitabına (2023) daxil edilib.




**İmperator qartalı (Aquila heliaca).** Dəniz səviyyəsindən 600-1000 m hündürlükdəki seyrək meşələrdə məskunlaşır. Kütləsi 2,5-4,5 kq-dır. Oturaq növdür. Təsərrüfatlara gəmirici heyvanları ovlamaqla xeyir, ev quşlarının cücələrini yeməklə zərər vurur. Nəsli kəsilmək təhlükəsində olan (EN) növ kimi Azərbaycan Respublikasının Qırmızı Kitabına (2023) daxil edilib.




**Böyük qırğı (Accipiter brevipes).**  Dəniz səviyyəsindən 1700 m hündürlüyədək olan meşələrdə məskunlaşır. Kütləsi 160 - 220 qramdır. Oturaq növdür. Ev quşlarının cücələrini ovlamaqla təsərrüfata zərər vurur. Nəsli kəsilməyə  həssas (VU) nadir növ kimi Azərbaycan Respublikasının Qırmızı Kitabına (2023) daxil edilmişdir.




**Qara kərkəs (Aegypius monachus).** Dəniz səviyyəsindən 800-1200 m  hündürlükdə ardıc meşəliklərində məskunlaşır. Kütləsi 7-12 kq-dır. Oturaq növdür. Ölmüş heyvan leşlərini yeyir və təbiətdə xəstəlik mənbələrini məhdudlaşdırır. Nəsli kəsilmək təhlükəsində olan (EN) növ kimi Azərbaycan Respublikasının Qırmızı Kitabına (2023) daxil edilib.